**UDC:** 297
**LBC:** 63.3(0=…); 66.1; 71.1
**MJ №** 301
10.33864/2617-751X.2025.v8.i4.69-84

# ISLAMIC SCHOLARS ACTIVE IN THE RELIGIOUS-SPIRITUAL AND SCIENTIFIC-SOCIAL SPHERES IN WESTERN AZERBAIJAN

**Hilal Aghamoghlanov***

**Abstract.** At the turn of the 19th to the 20th century, the city of Iravan (Yerevan) emerged not only as a center of trade and administration but also as a significant hub of religious and cultural life. During this period, a number of spiritually enlightened intellectuals were active within Iravan's scholarly circles. Throughout history, in Azerbaijan - including the Iravan region, which is an inseparable part of it - religious figures have played a crucial role in shaping the spiritual life of society, developing religious thought, and advancing the movement of enlightenment. This article examines prominent religious scholars of Western Azerbaijani origin who taught Islamic law (sharia) and religious studies in schools and seminaries across the region. Akhund Molla Muhammad Baqir Qazizadeh is recognized as one of the leading intellectuals who took significant initiatives in the field of education in late 19th and early 20th century Iravan. His pedagogical and public contributions were held in high regard. The article also highlights the life and educational activities of other distinguished religious and social figures of the period, including Mirza Abbas Muhammadzadeh, Mirza Mammadvali Qamarli (Qamarliński), Akhund Abulhasan Qazizadeh, Mirza Molla Alakbar Elkhanov, and Mirza Huseyn Agha.

**Keywords:** Islamic studies, Western Azerbaijan, religious education in Yerevan, religious and social activity, Islamic scholars

* Researcher and PhD Candidate, Institute of Oriental Studies named after Acad. Ziya Bunyadov, NAS of Azerbaijan; Baku, Azerbaijan
E-mail: hilal_ali@mail.ru
https://orcid.org/0009-0005-7317-3206

**To cite this article:** Aghamoghlanov, H. [2025]. ISLAMIC SCHOLARS ACTIVE IN THE RELIGIOUS-SPIRITUAL AND SCIENTIFIC-SOCIAL SPHERES IN WESTERN AZERBAIJAN. *"Metafizika" journal, 8*(4), pp.69-84.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.69-84

***Article history:***
*Received: 16.05.2025*
*Accepted: 31.07.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

*“Metafizika” Journal*
*Vol 8, issue 4, serial 32, 2025. pp.69-84*
*AcademyGate Publishing*
*p-ISSN 2616-6879; e-ISSN 2617-751X*
**УДК:** 297
**ББК:** 63.3(0=…); 66.1; 71.1
**MJ №** 301
10.33864/2617-751X.2025.v8.i4.69-84

# ИСЛАМСКИЕ УЧЁНЫЕ, ВНЕСШИЕ ВКЛАД В РАЗВИТИЕ РЕЛИГИОЗНО-ДУХОВНОЙ И НАУЧНО-ОБЩЕСТВЕННОЙ ЖИЗНИ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА

**Хилал Агамогланов***

**Абстракт.** В конце XIX - начале XX века город Эривань (Иреван) сформировался не только как центр торговли и административного управления, но и как значимый очаг религиозной и культурной жизни. В этот период в интеллигентной среде Эривани активно действовали ряд просвещённых духовных лиц. На протяжении истории в Азербайджане, включая его неотъемлемую часть- Эриванский регион, религиозные деятели играли важную роль в духовной жизни общества, формировании религиозного сознания и развитии просветительского движения. В данной статье рассматриваются видные религиозные деятели западноазербай-джанского происхождения, преподававшие исламское право (шариат) и религиозные дисциплины в школах и семинариях Западного Азербайджана. Ахунд Молла Мухаммад Багир Казызаде признан одним из выдающихся представителей интеллигенции, проявивших значительные инициативы в области просвещения в Эривани конца XIX - начала XX века. Его педагогическая и общественная деятельность получила высокую оценку современников. В статье также освещается жизненный путь и просветительская деятельность таких известных религиозных и общественных деятелей, как Мирза Аббас Мухаммадзаде, Мирза Маммедвали Гямерли (Гямерлинский), Ахунд Абульхасан Казызаде, Мирза Молла Алекпер Эльханов и Мирза Гусейн Ага.

**Ключевые слова:** Исламоведение, Западный Азербайджан, религиозное образование в Эривани, религиозно-общественная деятельность, исламские учёные

---

* Научный сотрудник и диссертант Института востоковедения имени акад. Зии Буниятова, НАН Азербайджана; Баку, Азербайджан
E-mail: hilal_ali@mail.ru
https://orcid.org/0009-0005-7317-3206
**Цитировать статью:** Агамогланов, Х. [2025]. ИСЛАМСКИЕ УЧЁНЫЕ, ВНЕСШИЕ ВКЛАД В РАЗВИТИЕ РЕЛИГИОЗНО-ДУХОВНОЙ И НАУЧНО-ОБЩЕСТВЕННОЙ ЖИЗНИ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА. *Журнал «Metafizika»*, *8*(4), с.69-84.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.69-84

***История статьи:***
*Статья поступила в редакцию: 16.05.2025*
*Отправлена на доработку: 17.06.2025*
*Принята для печати: 31.07.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 297
**KBT:** 63.3(0=…); 66.1; 71.1
**MJ №** 301
10.33864/2617-751X.2025.v8.i4.69-84

# QƏRBİ AZƏRBAYCANDA DİNİ-MƏNƏVİ VƏ ELMİ-İCTİMAİ SAHƏDƏ FƏALİYYƏT GÖSTƏRMİŞ İSLAM ALİMLƏRİ

**Hilal Ağamoğlanov***

**Abstrakt.** XIX əsrin sonu - XX əsrin əvvəllərində İrəvan şəhəri təkcə ticarət və inzibati mərkəz kimi deyil, həm də dini-mədəni həyatın əhəmiyyətli ocaqlarından biri kimi formalaşmışdı. Bu dövrdə İrəvanın ziyalı mühitində bir sıra ruhani maarifpərvər şəxslər fəaliyyət göstərirdi. Tarix boyunca Azərbaycanda, eləcə də onun bir parçası olan İrəvan bölgəsində dini-ruhani şəxsiyyətlər cəmiyyətin mənəvi həyatında, dini düşüncələrinin formalaşmasında və maarifçilik prosesində mühüm yer tutmuşlar. Məqalədə həmin Qərbi Azərbaycandakı məktəb və seminariyalarda islam şəriəti və din dərsləri tədris etmiş Qərbi azərbaycanlı görkəmli ruhanilər barədə söhbət açılır. Axund Molla Məhəmməd Bağır Qazızadə XIX əsrin sonları və XX əsrin əvvəllərində İrəvanda maarifçilik sahəsində mühüm təşəbbüslərlə çıxış edən ziyalılardan biri kimi tanınır. Onun pedaqoji və ictimai fəaliyyəti yüksək qiymətləndirilmişdir. Məqalə həm onun, həm də qeyd edilən dövrdə İrəvanda dini-ictimai və pedoqoji fəaliyyətləri ilə yadda qalan Mirzə Abbas Məhəmmədzadə, Mirzə Məmmədvəli Qəmərli (Qəmərlinski), Axund Əbülhəsən Qazızadə, Mirzə Molla Ələkbər Elxanov və Mirzə Hüseyn Ağanın həyat və fəaliyyətləri barədə məlumatlar yer alır.

**Açar sözlər:** Dinşünaslıq, Qərbi Azərbaycan, İrəvanda dini təhsil, dini-ictimai fəaliyyət, islam alimləri

* Dissertant,
AMEA akad.Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun elmi işçisi; Bakı, Azərbaycan
E-mail: hilal_ali@mail.ru
https://orcid.org/0009-0005-7317-3206

**Məqaləyə istinad:** Ağamoğlanov, H. [2025] QƏRBİ AZƏRBAYCANDA DİNİ-MƏNƏVİ VƏ ELMİ-İCTİMAİ SAHƏDƏ FƏALİYYƏT GÖSTƏRMİŞ İSLAM ALİMLƏRİ. *“Metafizika” jurnalı, 8*(4), səh.69-84.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.69-84

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 16.05.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 17.06.2025*
*Çapa qəbul edilmişdir: 31.07.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Qərbi Azərbaycan bölgəsi, xüsusilə də İrəvan xanlığı həm Səfəvi hakimiyyəti, həm də Çar Rusiyası tərəfindən işğal olunanadək keçən dövrlərdə dini-mədəni maarif ocağı olmuşdur. Bu bölgədən tarixən görkəmli alim və ədiblərin çıxması bunun bariz nümunəsidir. İrəvan bölgəsində fəaliyyət göstərən çoxsaylı məscid və mədrəsələr əhalinin ilkin ibtidai təhsilini təmin edirdi. Hər bir alim və din xadiminin ilk müəlliminin əksər hallarda öz doğma atası olması da, ailələrin savadlı və təhsilli olduğunu göstərən faktdır.

Tarix boyunca Azərbaycanda, eləcə də onun bir parçası olan İrəvan bölgəsində dini şəxsiyyətlər cəmiyyətin mənəvi həyatında, dini düşüncələrinin formalaşmasında və maarifçilik prosesində mühüm yer tutmuşlar. Bu din xadimləri, İslamın həm şiə, həm də sünni məzhəblərinə xidmət edən ruhani şəxslərdən ibarət olmuşdur.

Çar Rusiyası işğalından sonrakı ilk dövrlərdə də azərbaycanlılar dinlərinə və milli-mədəni ənənələrinə sadiq qalaraq mədrəsələrdə təhsili almağı daha uyğun hesab edirdilər. Adətən məscidlərin nəzdində təşkil olunan mədrəsələrdə 250-400 nəfər şagirdin tədris aldığı sənədlərdə qeyd olunur [Əhmədli, 2018, s.34-35]. Bu, həmin dövr üçün heç də kiçik rəqəm sayılmamalıdır.

Mədrəsələrdəki təhsil özündə həmin dövr üçün xarakterik olan tədris sistemini ehtiva edirdi. Əsasən üç istiqamətdə verilən təhsilə Azərbaycan, fars və ərəb dili və ədəbiyyatı, Quran qiraəti, eləcə də təfsir, hədis, fiqh, kəlam və fiqh üsulu elmləri daxil idi. Dini elmlərlə bərabər fəlsəfə, məntiq, riyaziyyat, coğrafiya, astronomiya, təbabət və təbiət elmləri də tədris olunurdu [Шопен, 1852, s.903-904].

Bu tip mədrəsələrin Qərbi Azərbaycanda Sovet hakimiyyəti qurulanadək mövcud olduğunu görmək olur. Belə ki, 1914-cü ilin statistikasına əsasən, həmin bölgədə ümumilikdə 14 mədrəsə fəaliyyət göstərmişdir. Bu mədrəsələrdə isə 375 şagird oxumuşdur [Qarayev, 2024, s.501]. Mədrəsələrdəki müəllimlər din xadimləri - axundlar, mirzələr və mollalar idilər. Şiə dini təhsil pillələrinə əsasən, axund olmaq üçün dərin ali dini təhsilə sahib olmaq lazımdır. Bu səbəbdən ruhanilərin cəmiyyətdə böyük nüfuz və ehtiramı vardı. Mədrəsədəki təhsilin səviyyəsi və müəllimin dərs keyfiyyəti, həmçinin tələblərin sayı məscid və ya mədrəsənin maddi imkanlarına bağlı idi. İanələri və vəqf gəlirləri çox olan məscid və mədrəsələr daha yaxşı müəllim heyəti cəlb edə bilirdilər [Əhmədli, 2018, s.35].

1850-ci illərdən etibarən Qərbi Azərbaycanda dövrünə görə müasir və qərbtipli məktəb, gimnaziya, progimnaziya və seminariyalar açılmağa başladı. Təsdiqlənmiş məktəb proqramına Azərbaycan, rus, fars və ərəb dilləri ilə yanaşı, şəriət və riyaziyyat fənləri də daxil idi. Şəriət dərsləri Firudin bəy

Köçərlinin tərtib etdiyi dərslik əsasında keçirilirdi. 1881-ci ildə İrəvan mahalında bir neçə yeni təhsil ocağı – İrəvan gimnaziyası, İrəvan Müəllimlər Seminariyası və Uluxanlıda yeni tipli məktəb fəaliyyətə başlamışdı. Bu müəssisələrdə şəriət dərslərini Məhəmməd Bağır Qazıyev və Mirzə Məmmədvəli Qəmərli kimi müəllimlər aparırdılar. 1914-cü ildə İrəvanda fəaliyyət göstərən ikisinifli rus-tatar oğlan ibtidai məktəbində şəriət müəllimi vəzifəsini Axund Abdulla Qazıyev icra edirdi. İrəvan Müəllimlər Seminariyasında isə ilahiyyat, rus dili, riyaziyyat, həndəsə, coğrafiya, tarix və biologiya ilə yanaşı, tatar dili (yəni Azərbaycan dili) də tədris olunurdu. İrəvanda tanınmış din və cəmiyyət xadimlərindən Axund Məhəmməd Bağır Qazızadə uzun müddət Seminariyada şəriət müəllimi kimi çalışmış, Axund Həsən Qazıyev İrəvan quberniyasının Dini Şurasının, Axund Məmmədəli Qazızadə isə Üçmüəzzin Dini Şurasının üzvü olmuşdur [Mürsəlova, 2020, s.511-512]. Həmçinin həmin dövrdəki tədris müəssisələrində Molla Tağı Mahmud oğlu və Molla Şeyxzadə kimi ana dili və şəriət fənlərini tədris edən müəllimlər də olmuşdur [Mərdanov, 2011, s.93].

Məqalədə həmin məktəb və seminariyalarda islam şəriəti və din dərsləri tədris etmiş Qərbi azərbaycanlı görkəmli ruhanilər barədə söhbət açacağıq.

**2.Məhəmməd Bağır Qazızadə**

Axund Məhəmməd Bağır Qazızadə İrəvan şəhərinin qazısı Hacı Mehdinin ailəsində dünyaya göz açmışdır. İlk təhsilini atasının yanında almış, daha sonra isə mədrəsə və qəza məktəbində oxuyaraq həm dini, həm də dünyəvi biliklərə yiyələnmişdir. Ali dini təhsil almaq üçün Nəcəf şəhərinə yollanmış, burada 11 il ərzində nüfuzlu elmi-dini mərkəzdə müxtəlif İslam elmlərini öyrənmiş və elmi səviyyəsini xeyli artırmışdır. Məhəmməd Bağır yalnız dini sahədə deyil, eyni zamanda riyaziyyat başda olmaqla bir sıra dünyəvi fənlərdə də dərin bilik qazanmışdır. Nəcəfdə ali dini təhsilini başa vurduqdan sonra Məhəmməd Bağır Qazızadə doğulduğu şəhər olan İrəvana qayıdır. Burada Zaqafqaziya Ruhani İdarəsində keçirilən imtahanda iştirak edərək axund rütbəsi alır. 1873-cü ildə isə İrəvan Quberniyası Ruhani Məclisinə üzv seçilir. Mənbələrin bildirdiyinə görə, o, bu məclisdə Axund Molla Xəlil Qazızadənin sədrliyi ilə fəaliyyət göstərən heyətdə, Axund Hacı Molla Abasqulu Sultanhüseynbəyov və Lütvəli bəy Qazıyev kimi nüfuzlu şəxslərlə birgə çalışmışdır. Məhəmməd Bağır Qazızadənin bu dövrdəki fəaliyyəti ona həm möminlər arasında, həm də yerli azərbaycanlı icmada geniş hörmət və etibar qazandırmışdır [Allahverdiyev, 2022, s.14-15].

Təhsilini tamamladıqdan sonra İrəvana dönən Məhəmməd Bağır Qazızadə Cənubi Qafqaz Ruhani İdarəsinin imtahanını müvəffəqiyyətlə verərək axund vəzifəsinə layiq görülmüşdür. 1873-cü ildə İrəvan quberniyasının Ruhani

Məclisinə üzv seçilmiş, 1883-cü il fevralın 28-də isə Cənubi Qafqaz Şiə Ruhani İdarəsinin qərarı ilə həmin məclisin sədri və qazisi təyin olunmuşdur.

Axund Molla Məhəmməd Bağır Qazızadə XIX əsrin sonları və XX əsrin əvvəllərində İrəvanda maarifçilik sahəsində mühüm təşəbbüslərlə çıxış edən ziyalılardan biri kimi tanınır. Onun pedaqoji və ictimai fəaliyyəti dövlət səviyyəsində də qiymətləndirilmiş, 1882-ci ildə gümüş medalla, 1898-ci ildə isə "Müqəddəs Anna" ordeni ilə təltif edilmişdi. Mütərəqqi baxışlı bir din xadimi kimi, o, təkcə oğlanların deyil, azərbaycanlı qızların da təhsilinə böyük önəm verirdi. Bu məqsədlə 1902-ci ildə İrəvanda öz şəxsi evində rus-tatar (azərbaycanlı) qızlar üçün məktəb açmışdı. Məktəbin təşəkkülündə yerli məmur ailələrinin də dəstəyi olmuş, məktəbin himayəsini İrəvan Quberniyasının vitse-qubernatoru knyaz Aleksey Çağadayevin həyat yoldaşı Yelena Çağadayeva üzərinə götürmüşdü. Müəssisənin idarəçiliyinə Antonina Valerianovna Kalinina rəhbərlik edirdi. Rus dili müəllimi Yevgeniya Georgiyevna Pxanadze, ana dili müəllimi isə Məmməd Vəli Qəmərlinski idi. Şəriət dərslərini isə şəxsən Axund Molla Məhəmməd Bağır Qazızadə özü tədris edirdi. Onun bu fəaliyyəti, dövrün cəmiyyətində dini və dünyəvi təhsilin vəhdətini təbliğ etməsi baxımından xüsusi əhəmiyyət kəsb edirdi [Rüstəmov, 2022, s.134].

Axund Məhəmməd Bağır Qazızadə 1911-ci ildə İrəvan şəhərində vəfat etmişdir [Rüstəmov, 2022, s.134].

Axund Molla Məhəmməd Bağır Qazızadənin doğum tarixinə gəldikdə, onun barəsində yazan mənbələrin bir qismində məlumatlara rast gəlinmir. Onun yalnız İrəvanda doğulduğu qeyd edilir [Rüstəmov, 2022, s.133]. Bəzi mənbələrdə isə 1829-cu ildə doğulduğu qeyd edilir [Allahverdiyev 2022, s.14]. Cəfər Cəfərov və Cəlal Allahverdiyevin "*İrəvanda milli maarifçilik mühiti*" kitabında isə onun doğum tarixinin 1853-cü il olaraq göstərilir [Cəfərov, Allahverdiyev, 2017, s.22].

Axund Məhəmməd Bağırın atasının adı Hacı Axund Molla Mehdidir. Axund vəzifəsi xanlıq dövründə Şeyxülislam vəzifəsindən bir pillə aşağıda olan dini vəzifə idi. Axundlar həmçinin xanlıq divanında da təmsil olunurdu. Həmçinin məlum olduğu kimi, Çar işğalınadək xanlıqların ərazisində camaat arasında vahid soyada sahib olmaq kimi bir adət yox idi. Əhali öz ata və babalarının adları, daşıdıqları dini və ictimai-siyasi mövqelərinə, eləcə də ziyarət etdikləri müqəddəs məkanlara nisbətləri, məxsusi ləqəb və təxəllüsləri ilə tanınırdılar. Bunlara nümunə kimi, hacı, kərbəlayi, məşhədi, müctehid, şeyxülislam, mollabaşı, mirzə, axund, qazı, əfəndi, molla və s. misal çəkmək olar. Məsələn: Şeyxülislam Molla Məhəmməd Məhəmməd Hüseyn oğlu, Hacı Axund Məhəmməd Molla Əli oğlu, Kərbəlayi Qazı Abdullah Hüseyn oğlu, Kərbəlayi Həsən, Qazi Behcət Əfəndi və s.

Lakin Rusiya imperiyasının işğalından sonrakı dövrdə şəxslərin identifikasiyasının dəqiqləşdirilməsi və düzgün təyin edilməsi yönündən yeni rəhbərlik və idarəçilik normalarından doğan tələblərə, eləcə də imperiya ərazisindəki mövcud nümunələrə əsasən, 1850-ci illərdən başlayaraq azərbaycanlı əhali arasında da ata və baba adları soyad və familiyalarla əvəzlənməyə başladı. Həmin dövrdə İrəvan quberniyasında yüksək mənsəb və məqama sahib olan ailələlər öz mənsubiyyətlərini qorumaq və ifadə etmək üçün Şeyxülislamov, Axundzadə, Axundov, Qazızadə, Qazıyev, Pişnamazzadə kimi soyadlarından istifadə etməyə başladılar. “Zadə” soyad sonluğu lüğətdə “törəmiş, doğulmuş” mənaları ifadə etməklə nəslin və soyun mənsub edildiyi kökə işarə etməkdədir [Dehkhoda, Maddə: "زاده"].

Yuxarıda qeyd edilənlərə əsasən, Axund Məhəmməd Bağır Qazızadənin “Qazızadə” soyadından istifadə etməsi onun atasının qazı olduğunu göstərir və onun qazı, yaxud axund soyundan olduğunu əminliklə söyləyə bilərik.

İrəvan quberniyasında işğaldan öncə xanlığın vəzirinin və Şeyxülislamın da təmsil olunduğu, xanın rəhbərliyi altında divan fəaliyyət göstərirdi. Onlar İrəvanın imtiyazlı şəxsləri sırasında idilər. Həmçinin İrəvan şəhərində 6 axund vardı ki, onlardan biri Axund Molla Mehdi Axund Molla Məmmədəli Peşnamaz oğlu idi [Əhmədli, 2018, s.42]. İrəvan şəhərinin 1851-ci ilə olan kameral təsvirində onun 45 yaşının olduğu qeyd edilir. Axundun həyat yoldaşı Şərəbanu xanımdır. Həmin vaxt xanımın 20 yaşı vardı. 1851-ci ildəki qeydə əsasən, Axundun həmin il Əliqulu adında 1 yaşlı oğlu vardır. Demək, bu, axundun ilk övladı idi.

Bu məlumatlara əsasən, əminliklə demək olar ki, Axund Molla Mehdinin övladı olduğu ehtimal edilən Məhəmməd Bağır Qazızadənin doğum tarixi 1851-ci ildən sonraya təsadüf edir. Məlumatlar arasında yalnız Cəfər Cəfərov və Cəlal Allahverdiyevin “İrəvanda milli maarifçilik mühiti” [Cəfərov, Allahverdiyev, 2017, s.22] kitabında Axund Məhəmməd Bağır Qazızadənin doğum tarixinin 1853-cü il olduğu göstərilir. Bu da gəldiyimiz qənaətlə uyğunluq təşkil edir.

**3.Mirzə Abbas Məhəmmədzadə**

XIX əsrin sonu və XX əsrin əvvəllərində İrəvanda dini-ictimai fəaliyyətləri ilə yadda qalan şəxslərdən biri də Mirzə Abbas Məhəmmədzadədir. O, Qərbi Azərbaycan müsəlmanları arasında maarifçi hərəkatın fəal simalarından idi. Fars dilinə dərindən vaqif olan və bu sahədə peşəkar sayılan Abbas İrəvanda “Fars Abbas” ləqəbi ilə məşhurdu. O, həm İrəvan gimnaziyasında, həm də pansionda dərs verirdi [Mərdanov, 2011, s.92].

Abbas Məhəmməd oğlu Məhəmmədzadənin 1846-cı ildə İsfahanda doğulduğu qeyd olunur. Abbasın atası Məhəmməd irəvanlı olmasına baxmayaraq ticarət məqsədilə İsfahana köçmüş və orada ailə qurmuşdu. Mirzə

Abbas həmin vaxt İsfahanda doğulmuş, lakin 10-11 yaşlarında ailəsi ilə birgə İrəvana gəlmiş və burada mədrəsədə təhsil almışdı. O, oxumağa böyük həvəs göstərmiş və sonralar dini məktəblərdə fars dili müəllimi olmuşdur [Зейналов, 2011, s.50]. Cəlal Allahverdiyevin məlumatına əsasən isə, Mirzə Abbas 1846-cı ildə İrəvan şəhərində anadan olmuş, ilk olaraq İrəvanda mədrəsədə təhsil almış, daha sonra təhsilini İsfahanda davam etdirmisdir. Orada ali dini təhsil aldıqdan sonra yenidən dogma vətəninə - İrəvana qayıtmışdır [Allahverdiyev, 2025].

Abbas Məhəmmədzadənin fəaliyyəti Qərbi Azərbaycan müsəlmanlarının maariflənməsi və islam mədəniyyətinin qorunub saxlanılması baxımından mühüm əhəmiyyət daşıyır. O, yalnız müəllim kimi deyil, həm də maarifçi və dini-mədəni xadim kimi çıxış edirdi. Onun müəllimlik fəaliyyəti dini maarifin təhsil yolu ilə möhkəmləndirilməsi prosesinə xidmət edirdi. Abbas təkcə ərəb və fars dillərində deyil, həmçinin rus dilini də yaxşı bilirdi. O, maarifçilik yolunda çalışaraq dövrünün seçilən ziyalılarından biri kimi gimnaziya və pansionatlarda pedaqoji fəaliyyət göstərmişdir.

Məşhur şərqşünas Əziz Şərif öz müəllimi Abbas Məhəmmədzadəni belə xatırlayır: "*İrəvanda pansionatda oxuyanda atam mənim üçün fars dili üzrə xüsusi müəllim tapdı. Mənim müəllimim çox savadlı və təcrübəli idi. O, Molla Abbas idi. İrəvanda fars dili üzrə mütəxəssis olduğuna görə, ona "Fars Abbas" deyirdilər. O, mənim xüsusi müəllimim olmuşdu*" [Məhərrəmov, 2010, s.84].

1912-ci ildə Bakıda Orucov qardaşlarının mətbəəsində çap olunan "Güldəstə" kitabında müəllif həm klassik ədəbiyyatdan, həm də maarifçilik ideyalarından geniş istifadə etmişdir. Sədi və Cami kimi tanınmış şairlərin tərbiyəvi məzmunlu şeirlərindən ilham alaraq, özü də "Məktəbin tərifi", "Məktəbə rəğbət" kimi maarifə çağıran şeirlər yazmışdır. O, məktəbi cəmiyyətin inkişafında əsas rol oynayan bir qurum kimi qiymətləndirmiş və məktəbə laqeyd münasibət göstərənləri məsuliyyətsiz insanlar saymışdır. Kitabda, həmçinin "İki itin dostluğu" adlı mənalı hekayə də nəzm formasında yer almış və oxuculara tərbiyə yöndən təsir etməyi hədəfləmişdir [Məhərrəmov, 2010, s.86].

1913-cü ildə isə Abbas Məhəmmədzadənin "Bədrağatül-ətfal" ("Uşaqlara hədiyyə") adlı dərslik kitabı çap olunmuş, bu əsər həm Bakıda, həm Tiflisdə, həm də İrəvanın "Budaqov" nəşriyyatında nəşr edilmişdi. Kitabın beş cilddən ibarət olduğu, dördünün uşaqlar üçün nəzərdə tutulduğu qeyd olunur [Bayramov, 2022, s.115].

Eyni il Bakıda "Orucov qardaşları"nın nəşriyyatında «Самоучитель персидского языка для русских» ("Ruslar üçün fars dilinin özünütəlimi") adlı kitabı çap olunmuşdur. Bu dərslik müəllifin həm fars, həm də rus dillərinə

sərbəst sahib olduğunu göstərirdi və uzun müddət istifadə olunmuşdur [Məhərrəmov, 2010, s.86]. Qələmə aldığı bu dərsliyi göstərir ki, Abbas Məhəmmədzadə cəmiyyət fərdləri arasında sosial inteqrasiya və mədəni körpülər yaratmağa səy göstərirdi. Həmin kitab İslam Şərqi ilə Rus imperiyası arasında bir növ mədəni-ictimai vasitəçilik funksiyası daşıyırdı. Onun bu yöndəki fəaliyyətləri həmin dövrə xas olan ruslaşdırma siyasətinin güclü olduğu bir zamanda alternativ maarif və mədəni müqavimət forması kimi də dəyərləndirilə bilər.

1918-ci ildə İrəvanda yaranan gərgin vəziyyət səbəbindən Abbas Məhəmmədzadə Təbrizə köçmüş, 1919-cu ildə orada vəfat etmiş və Təbrizdə “Gülüstan” bağında dəfn olunmuşdur [Зейналов, 2011, s.52].

**4.Məmmədvəli Qəmərli (Qəmərlinski)**

İrəvanda dini-ictimai fəaliyyətləri ilə seçilən, dini təhsilin inkişafında əhəmiyyətli töhfə verən pedaqoqlardan biri də Mirzə Məmmədvəli Qəmərlidir. O, 1871-ci ildə anadan olmuşdur. Atası Əli Qəmərli Çar ordusunda xidmət etmişdir [Rüstəmov, 2022, s.141].

Mirzə Məmmədvəli 1898-ci ildə İrəvanda rus-tatar məktəbini bitirmiş, 1900-cü ildə İrəvan quberniya məclisində imtahan verərək müəllimlik diplomu almışdır. O, 1901-1911-ci illər ərzində İrəvanda rus-tatar məktəbində müəllim kimi çalışmışdır [Bayramov, 2022, s.107]. Mirzə Məmməd vəli bir neçə şəxs ilə birlikdə 1902-ci ildə İrəvanda ilk qızlar məktəbi açmışdır və özü də 1903-cü ildən etibarən həmin məktəbində şəriət fənnini tədris etmişdir [Cəfərov, Allahverdiyev, 2017, s.41]. Bu haqda "Kaspi" qəzeti, bir qədər sonra “Şərqi-rus” qəzeti özünün 1903-cü il 14-cü sayında həmin məktəbin şəriət müəllimi olan Məmmədvəli Qəmərlinin məlumatını dərc etmişdi [Palitra, 2015].

Məmməd Vəlinin müəllifi olduğu “Atalar sözü” adlı kitabı 1889-cu ildə İrəvanda “Edilson” nəşriyyatında çap olunmuşdur. Bundan başqa, 1907, 1908 və 1911-ci illərdə nəşr edilən “Ana dili” dərsliklərinin həmmüəlliflərindən biri də məhz Mirzə Məmmədvəli Qəmərlinskidir [9].

Mirzə Məmmədvəli Qəmərlinski Molla Məmmədbağır Qazızadənin şəxsi mənzilində təşkil etdiyi rus-Azərbaycan dillərində tədris aparan iki siniflik qızlar məktəbində şəriət fənnindən dərs demişdir. Onun atası Əli Qəmərlinski milli düşüncəli, savadlı bir ziyalı kimi tanınmış, imperiya ordusunda xidmət edərək general rütbəsinə qədər yüksəlmişdi. Məmmədvəli Qəmərlinski isə 1898-ci ildə İrəvan şəhərində fəaliyyət göstərən rus-tatar məktəbini bitirmiş, 1900-cü ildə isə müəllimlik ixtisasına dair şəhadətnamə əldə etmişdir [Bayramov, 2022, s.107].

1906-cı ildə Bakıda keçirilən müəllimlər qurultayında iştirak edən Mirzə Məmmədvəli Qəmərli Nəriman Nərimanov vasitəsi ilə Mirzə Ələkbər Sabirlə tanış edilmiş və Məmməd Vəli İrəvandakı məktəblər barədə ona məlumat

vermişdi. Alimin oğlu Mahmud Qəmərli "Atamın xatirələrindən" adlı kitabında həmin görüşü atasının dilindən belə təsvir edir: "Sabirin gözləri sevincdən yaşardı, mənə böyük rəğbət göstərdi və uzun-uzadı söhbət etdik. Sabiri İrəvana dəvət etdim. Bizim İrəvan səfərimizin xərclərini Nəriman Nərimanov qarşılamışdı. Qurultaydan sonra İrəvana yollandıq. Sabir orada Həşim bəy Nərimanbəyov, Həmid bəy Şahtaxtinski, Sultanov, Qaziyev və digər ziyalılarla tanış olduqdan sonra dedi: "*Mirzə, sizin müəllimləriniz, məktəbləriniz və dərs metodlarınız, xüsusilə müsəlman qızlar məktəbi məni dərindən təsirləndirdi. Yaxın gələcəkdə millətimizin də ön sıralarda olacağına inanıram*" [Palitra, 2015].

Məmmədvəli Qəmərli 1916-cı ildə erməni daşnaqlarının törətdiyi vəhşiliklər və qırğınlar zamanı böyük çətinliklərlə ailəsi ilə birlikdə Gəncə şəhərinə köçmək məcburiyyətində qalmışdır. O, burada məktəb direktoru təyin edilmişdir. Bu müddətdə Qərbi Azərbaycandan (Ermənistandan) zorla köçürülmüş qadınları və uşaqları erməni daşnaqlarından gizlətdiyi üçün ermənilər tərəfindən elə məktəbdə qətlə yetirilmişdi [Bayramov, 2022, s.106].

Mirzə Məmmədvəli Qəmərlinin beş oğlu olmuşdur. Böyük oğlu Hüseynəli, digər oğulları Əli, Paşa, Adil və Mahmuddur. Övladlarının bir çoxu müəllim kimi fəaliyyət göstərmişlər [Məhərrəmov, 2010, s.76]. Ailənin böyük övladı isə İrəvanda ali təhsil aldıqdan sonra 1915-ci ildə Türkiyəyə mühacirət etmiş və orada hərbi general vəzifəsinə qədər irəliləmişdi. Digər qardaşlardan Əli Gori Müəllimlər Seminariyasında, Paşa, Adil və Mahmud isə İrəvanda oxumuş, daha sonra bu şəhərdə pedaqoji fəaliyyət göstərmişlər [Bayramov, 2022, s.106].

**5.Mirzə Hüseyn Ağa**

İrəvanın parlaq simalarından biri, görkəmli ruhani, şərqşünas alim və istedadlı şair Mirzə Hüseyn Ağa idi. O, təxminən 1868-ci ildə İrəvanda həkim ailəsində dünyaya göz açmışdır. Atası irəvan quberniyasının baş həkimi Mirzə Həsən Ağa idi.

Mirzə Hüseyn Ağa ilk təhsilini doğulduğu İrəvanda almış, daha sonra Bağdad və Nəcəf şəhərlərinə getmiş, təhsilini orada davam etdirmişdir. Nəcəfdən ayrıldıqdan sonra bir müddət Tehranda, Təbrizdə, İstanbulda, Ədirnə şəhərlərində çalışmış, sonuncu şəhərdə Anisə adlı savadlı bir xanımla ailə həyatı qurmuşdur.

Bir müddətdən sonra Mirzə Hüseyn Ağa yenidən İrəvana qayıtmış və ömrünün sonunadək orada yaşamışdır. Qeydlərə əsasən, o, əksər vaxtlarda İrəvanın məşhur Göy məscidində keçirir, şəhərin ziyalıları məsciddə onun ətrafında toplaşırdı. Türkiyə, İran və Yaxın Şərqdən İrəvana gələn alimlər mütləq onunla görüşərdilər [Mustafa, 2025].

Mirzə Hüseyn Ağa həm bir ruhani, həm də yüksək səviyyəli şərqşünas kimi yetişməsində onun Bağdad və Nəcəf kimi İslam elmlərinin mühüm mərkəzlərində təhsil alması rol oynamışdı. O, yalnız klassik fiqh və şəriət sahəsində deyil, həm də ümumi Şərq fəlsəfəsi və tarixi üzrə dərin biliklərə sahib bir alim idi. İrəvana qayıtdıqdan sonra, ömrünün böyük hissəsini xalqa xidmətə və ünsiyyətə yönəltməsi, yerli və əcnəbi alimlərin onunla məsləhətləşməyə gəlməsi Hüseyn ağanın dini nüfuz sahibi və elmi avtoritet kimi parladığını göstərir. Bu fakt isə Qərbi Azərbaycandakı ruhani alimlərinin sadəcə dini deyil, eyni zamanda ictimai rəyin formalaşmasında maarifçi və ictimai-mədəni simalar olduğunu bir daha sübut edir.

Mirzə Hüseyn Ağa ictimai məsuliyyəti ilə də seçilən bir şəxsiyyət olmuşdur. O, bir müddət Milli Şura və Xeyriyyə Cəmiyyətinin sədri olmuşdur. Onun bu xeyriyyəçilik fəaliyyəti sayəsində İrəvandan olan çox sayda gənc Rusiyada və digər ölkələrdə təhsil almışdır [Зейналов, 2011, s.77].

Mirzə Hüseyn Ağa həm də şərqşünas idi. Şərqin tarixi, ədəbiyyatı, fəlsəfəsi, adət və ənənələri barədə dərin məlumatlara sahib idi. Dəfələrlə Sankt-Peterburq və Kazan universitetlərindən, həmçinin Bakıdan dəvət alsa da, doğma yurdunda qalaraq həmvətənlərinə xidmət etməyi üstün tutmuşdur. Onun şərqşünaslıq bilgisi barədə maraqlı bir fakt qeyd edilir. Belə ki, SSRİ EA-nın Ermənistan filialında heç bir alimin oxuya bilmədiyi əlyazmanı Mirzə Hüseyn Ağa təhqiq etmiş və mətnin güzgü əksi ilə yazıldığını müəyyən edərək oxumuş və köçürmüşdü [10].

Mirzə Hüseyn Ağa Bakıda yaşayan dövrün nüfuzlu alim və şairləri ilə daim əlaqə saxlayırdı. Xüsusilə, Hüseyn Cavidlə aralarında yaxın münasibətlər mövcud idi. Cavid yeni əsərlərini ona göndərərək əsər barədə rəyini almaq istəyirdi. O, ərəb, fars, fransız və erməni dillərində səlis danışırdı. Təəssüf ki, elmi məqalələrinin əksəriyyəti bizə çatmamışdır. Mirzə Hüseyn Ağa eyni zamanda istedadlı şair idi; “Hadi” və “Səfa” təxəllüslərindən istifadə edərək ərəb, fars və Azərbaycan dillərində şeirlər yaratmış, həmçinin fars ədəbiyyatından Azərbaycan dilinə tərcümələr etmişdi. Mirzə Hüseyn Ağa həm də cəmiyyət arasında hörmətlə yad edilən və məsləhət üçün müraciət olunan bir ağsaqqal idi [Зейналов, 2011, s.80].

Təəssüflər olsun ki, bu ziyalı və maarifpərvər insanın həyatı sürgündə sona çatmadı. 1938-ci il martın 5-də erməni millətçiləri gecə ikən onu evindən aparmış və Rusiyanın Kaluqa şəhərinə sürgün etmişlər. Təxminən 68-70 yaşlarında orada vəfat edən Mirzə Hüseyn Ağanın zəngin kitabxanası talan olunmuş, elmi əsərləri və şeirləri məhv edilmişdi.

Oğlu Həsən Kamal atası haqqında danışarkən demişdir: “*Atamın kitabxanası çox zəngin idi. Ərəb, fars, türk və Azərbaycan dillərində nadir əsərlər saxlanılırdı. Şərqin böyük klassikləri ilə bərabər Viktor Hüqo, Balzak, Dyuma,*

*Defo kimi Avropa yazıçılarının da əsərləri vardı. Kitabxana və əlyazmalar millətçilər tərəfindən qarət edildi*".

Mirzə Hüseyn Ağanın yeddi övladı olmuşdur. Böyük oğlu Həsən Kamal 1908-ci ildə, ikinci oğlu İsmayıl 1910-cu ildə doğulmuşlar. Digər iki oğlunun adı Qivam və Ziyadır [Зейналов, 2011, s.77-84].

**6.Mirzə Molla Ələkbər Elxanov**

İrəvan və onun ətraf bölgələrində maarif hərəkatının aparıcı simalarından biri də ömrünü maarifə və xalqın tərəqqisinə həsr etmiş Mirzə Molla Ələkbər Elxanovdur.

Mirzə Ələkbər Elxanov 1828-ci ildə Qərbi Azərbaycanın Uluxanlı kəndində dünyaya gəlmişdir. İlk təhsilini İrəvan şəhərindəki Şah Abbas məscidi nəzdində fəaliyyət göstərən ruhani məktəbdə almış, daha sonra rus dilini öyrənərək Tiflisə yollanmışdır. 1856-cı ildə Tiflis gimnaziyasında imtahan verərək Azərbaycan dili müəllimi adını almış və bu sahədə rəsmi ixtisas qazanmış ilk azərbaycanlılardan biri olmuşdur [Rüstəmov, 2024, s.98].

M.Ə.Elxanovun maarifçilik fəaliyyəti 1856-cı ildən başlayaraq 1885-ci ilə - vəfatına qədər davam etmişdir. Bu müddət ərzində o, İrəvandakı müxtəlif məktəblərdə- əvvəlcə qəza məktəbində, sonra progimnaziyada, sonra gimnaziyada İslam şəriəti və Azərbaycan dili müəllimi kimi fəaliyyət göstərmişdir.

Zamanın pedaqoji yeniliklərinə açıq olan Elxanov, xüsusilə rus pedaqoqu K.D.Uşinskinin ideyalarına böyük maraq göstərmiş, onun "Vətən dili" və "Uşaq aləmi" adlı dərsliklərini örnək alaraq, Azərbaycan dilində ilk dərs vəsaitlərindən birini – "Vətən dili"ni tərtib etmişdir. Bu dərsliyin Rusiya Xalq Maarif Nazirliyində müzakirəyə çıxarılmış və çapa tövsiyə olunmuşdur [Sarıyeva, 2025].

Mirzə Molla Ələkbər Elxanovun fəaliyyəti təkcə dərs dediyi sinif otaqları ilə məhdudlaşmırdı. O, maarifi xalqın mənəvi dirçəlişi üçün əsas vasitə kimi dərk edir, millətin gələcəyinin savadlı və düşünən nəsillərin yetişməsindən asılı olduğunu anlayırdı. Onun maarifçi idealları XIX əsrin sonlarında İrəvanda açılan yeni məktəblərdə, qadın təhsili sahəsində atılan addımlarda və ümumilikdə, Qərbi Azərbaycan əhalisinin təhsil tarixində öz əksini tapmışdır [Rüstəmov, 2024, s.101].

**7.Axund Əbülhəsən Qazızadə**

Axund Əbülhəsən Qazızadə 1862-ci ildə qədim İrəvan şəhərində anadan olmuşdu. Ailəsinin dini ənənələrə bağlılığı və elmə münasibəti onun erkən yaşlarından maarifə yönəlməsinə zəmin yaratmışdı. Qazızadə soyadı daşıması onun soyunda qazıların olduğunu göstərir. Gənclik illərində o, İrəvanda fəaliyyət göstərən mədrəsələrdən birində dini təhsilə başlayaraq klassik İslam elmlərini öyrənmiş, ərəb və fars dillərində dini mətnləri dərindən

mənimsəmişdi. Sahib olduğu ruhani libası onun elmi-dini hövzələrdən birində ali təhsil aldığına dəlalət edir.

Zəngin dini biliyi və nüfuzu nəticəsində Əbülhəsən Qazızadə İrəvan Quberniyası Ruhani Məclisinə üzv seçildi. Bu məclis Zaqafqaziya müsəlmanlarının dini işlərini idarə edən əsas qurumlardan biri idi və onun tərkibində yer almaq yüksək ictimai etimadın göstəricisi sayılırdı. 1909-cu ildə isə o, İrəvan Quberniyası Ruhani Məclisinin Ordubad qəzası üzrə sədri təyin edilmişdi. Bu vəzifə Qazızadəyə təkcə dini işlərə nəzarət imkanı vermir, həm də bölgədə yaşayan azərbaycanlı-müsəlman əhalinin dini və mədəni problemlərinin həllində fəal iştirak etmək imkanı yaradırdı [Rüstəmov, 2022, s.135].

Axund Əbülhəsən Qazızadə təkcə dini idarəçilik fəaliyyəti ilə kifayətlənməmiş, maarif sahəsində də ciddi təşəbbüslərlə çıxış etmişdi. 1911-ci ildə Tiflisdə nəşr olunan və “Kultura” nəşriyyatı tərəfindən işıq üzü görən dörd cildlik “Durusuş-şəriə” (“Şəriət dərsləri”) adlı əsəri onun elmi-pedaqoji mirası sayılır.

Həmin ildən başlayaraq Axund Əbülhəsən Qazızadə İrəvan Müəllimlər Seminariyasında da fəaliyyətə başlamış, burada şəriət fənnini tədris etməyə başlamışdı. Seminariya bağlanana qədər o, burada müəllimlik fəaliyyətini davam etdirmişdir. Onun dərs dediyi illərdə bu təhsil müəssisəsi azərbaycanlı gənclərin dini və dünyəvi elmlərə yiyələnməsində mühüm rol oynamışdır. Qazızadə yalnız bir axund kimi deyil, həm də savadlı, müasir təhsil metodlarını tətbiq edən bir müəllim kimi yaddaşlarda qalmışdır.

Təəssüf ki, Axund Əbülhəsən Qazızadənin həyatının son illəri və vəfat tarixi ilə bağlı dəqiq məlumatlar günümüzə gəlib çatmamışdır. Lakin onun əsərləri, dini və pedaqoji fəaliyyəti, xüsusilə də İrəvanda dini təhsilin və ümumiyyətlə maarifçiliyin inkişafına verdiyi töhfələr bu görkəmli şəxsiyyətin Azərbaycan ictimai-mədəni həyatındakı yerini aydın şəkildə göstərir.

**8.Nəticə**

Qərbi Azərbaycan, xüsusilə İrəvan xanlığı tarix boyu dini-mədəni və maarifçilik mərkəzi olmuşdur. İrəvan bölgəsində fəaliyyət göstərən məscid və mədrəsələr xalqın ilkin təhsilini təmin etmiş, həm dini, həm də dünyəvi elmlərin öyrədilməsi üçün mühüm mərkəzlər hesab olunmuşdur. Mədrəsələrdə Azərbaycan, fars və ərəb dilləri, Quran qiraəti, fiqh, kəlam, hədis elmləri ilə yanaşı fəlsəfə, riyaziyyat, coğrafiya və təbabət kimi sahələr də tədris edilirdi. Bu təhsil ocaqları 1920-ci ilə qədər aktiv olmuş və bölgədəki din xadimləri cəmiyyətin həm mənəvi, həm də maarifçilik həyatında böyük rol oynamışlar.

İrəvanda XIX əsrin sonu və XX əsrin əvvəllərində fəaliyyət göstərmiş tanınmış dini ziyalılar - Məhəmməd Bağır Qazızadə, Mirzə Abbas Məhəmmədzadə və Məmməd Vəli Qəmərli kimi şəxslər dini təhsil və ictimai

maarifçilik sahəsində əhəmiyyətli işlər görmüşdür. Məhəmməd Bağır Qazızadə Nəcəfdə ali dini təhsil alaraq İrəvanda axund rütbəsi qazanmış, həm dini, həm də dünyəvi təhsilin vəhdətini təbliğ etmiş, 1902-ci ildə qızlar üçün məktəb açmaqla cəmiyyətin inkişafına töhfə vermişdir. Mirzə Abbas Məhəmmədzadə isə fars dili müəllimi kimi tanınmış, elmi-pedaqoji fəaliyyətlə məşğul olmuş və dərsliklər yazmışdır. Məmməd Vəli Qəmərli isə İrəvanda dini təhsilin inkişafında mühüm rol oynamışdır.

Beləliklə, İrəvan xanlığı və onun ətrafı dini-mədəniyyət mərkəzi kimi tarixdə öz əhəmiyyətini qoruyub saxlamış, burada formalaşan maarifçilik mühiti Azərbaycan xalqının milli və dini şüurunun inkişafına xidmət etmişdir.

## ƏDƏBİYYAT

**1.** Allahverdiyev, C. (2022). İctimai-pedaqoji fikir tarixinin görkəmli nümayəndəsi. *525-ci qəzet,* 9 aprel 2022, 14–15.

**2.** Allahverdiyev, C. (2025). Maarif və mədəniyyət tariximizin parlaq şəxsiyyəti. *Respublika qəzeti*. 24 aprel 2025. https://respublika-news.az/az/news/maarif-ve-medeniyyet-tariximizin-parlaq-sexsiyyeti

**3.** Bayramov, H. (2022). İrəvan müəllimlər seminariyası və yeni tipli ictimai-maarifçi hərəkatın genezisi. *Məktəbəqədər və ibtidai təhsil,* Xüsusi buraxılış, 2022(2), 102–119.

**4.** Bayramov, İ. (2022). İrəvanda pedaqoji təhsil tarixindən. *Azərbaycan məktəbi*, № 2 (699), 99–108.

**5.** Cəfərov, C., & Allahverdiyev, C. (2017). *İrəvanda milli maarifçilik mühiti*. Bakı: Şərq-Qərb, 440 s.

**6.** Dehkhoda, A. A. (t.s.). *Loghatnameh*. Tehran: Tehran University Press. Maddə: "زاده".

**7.** Əhmədli, N. (2018). *İrəvan əyalətinin kameral təsviri. I cild: İrəvan şəhərinin kameral təsviri (1831-ci il)*. Bakı: Turxan NPB, 328 s.

**8.** Bayramov, H. (2022). İrəvan Müəllimlər Seminariyası və yeni tipli ictimai-maarifçi hərəkatın genezisi. *Məktəbəqədər və ibtidai təhsil* (elmi-metodik jurnalının xüsusi buraxılışı), 2022(2), 102–119.

**9.** Mirzə Məmmədvəli Qəmərlinski haqqında. (t.s.). *Qərbi Azərbaycan*. https://qerbiazerbaycan.com/mirz%c9%99-m%c9%99mm%c9%99dv%c9%99li-q%c9%99m%c9%99rlinski/

**10.** Mirzə Məmmədvəli Qəmərlinski – bioqrafiya. (t.s.). *Qərbi Azərbaycan İcması*. https://westaz.org/az/person/mirze-memmedveli-qemerlinski

**11.** Qarayev, E. (2024). *Qərbi Azərbaycan XIX yüzilliyin ikinci yarısı – XX yüzilliyin əvvəllərində (İrəvan quberniyasının materialları əsasında)*. Bakı: Füyuzat, 564 s.

**12.** Məhərrəmov, Z. (2010). *İrəvanda məktəbdarlıq və maarifçilik (1800–1920-ci illərdə ədəbi-mədəni mühit)*. Bakı: Nurlan, 320 s.
**13.** Mərdanov, M. (2011). *Azərbaycanın təhsil tarixi* (I cild). Bakı: Təhsil, 295 s.
**14.** Mustafa, N. (ts). *Elm və təhsil.* Müraciət tarixi: 18.03.2025. https://iravan.preslib.az/elm_ve_tehsil.html
**15.** Mürsəlova, A. (2020). XVII–XIX əsrlərdə İrəvan: tarixi, fəqihləri, dini təhsili. *II International Ankara Conference of Scientific Research*, Türkiye, Ankara, 6–8 mart, 2020, 511–513.
**16.** *Palitra* qəzeti. (2015, 10 iyun). Nəvəsi Faiq Qəmərlinin verdiyi məlumatlar.
**17.** Rüstəmov, F. (2022). *İrəvan Müəllimlər Seminariyası və onun məzunları*. Bakı: Elm və təhsil, 240 s.
**18.** Rüstəmov, F. (2024). *İrəvan kişi gimnaziyası və onun azərbaycanlı məzunları*. Bakı: Elm və təhsil, 480 s.
**19.** Sariyeva, İ. (2025). *XIX əsrdə “Vətən dili” dərsliyi yazmış məşhur irəvanlı azərbaycanlı...* Müraciət tarixi: 21.04.2025. https://www.baki-xeber.com/sosial/166627.html
**20.** Зейналов, А. (2011). *Эриванская интеллигенция*. Баку: Мутарджим. 400 с.
**21.** Шопен, И. (1852). *Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи*. СПб.: В типографии Императорской Аккадемии Наук.

## REFERENCES

**1.** Allahverdiyev, C. (2022). Prominent representative of the history of public-pedagogical thought. *525 Newspaper*, April 9, 2022, 14–15. (in Azerbaijani)
**2.** Allahverdiyev, C. (2025). The bright figure of our history of education and culture. *Respublika Newspaper*, April 24, 2025. https://respublika-news.az/az/news/maarif-ve-medeniyyet-tariximizin-parlaq-sexsiyyeti (in Azerbaijani)
**3.** Bayramov, H. (2022). The genesis of the Iravan Teachers' Seminary and the new type of social-educational movement. *Preschool and Primary Education*, Special Issue, 2022(2), 102–119. (in Azerbaijani)
**4.** Bayramov, I. (2022). On the history of pedagogical education in Iravan. *Azerbaijan School*, No. 2 (699), 99–108. (in Azerbaijani)
**5.** Cafarov, C., & Allahverdiyev, C. (2017). *The national enlightenment environment in Iravan.* Baku: Sharq-Qerb, 440 p. (in Azerbaijani)
**6.** Dehkhoda, A. A. (n.d.). *Loghatnameh*. Tehran: Tehran University Press. Entry: "Zadeh". (in Persian)

7. Ahmadli, N. (2018). *Cameral description of the Iravan province. Vol. 1: Cameral description of the city of Iravan (1831).* Baku: Turxan Publishing House, 328 p. (in Azerbaijani)
8. Bayramov, H. (2022). The Iravan Teachers' Seminary and the genesis of a new type of social-educational movement. *Preschool and Primary Education* (Scientific-Methodological Journal, Special Issue), 2022(2), 102–119. (in Azerbaijani)
9. About Mirza Mammadvali Qemerlinski. (n.d.). *Western Azerbaijan*. https://qerbiazerbaycan.com/mirz%c9%99-m%c9%99mm%c9%99dv%c9%99li-q%c9%99m%c9%99rlinski/ (in Azerbaijani)
10. Mirza Mammadvali Qemerlinski – Biography. (n.d.). *Western Azerbaijan Community*. https://westaz.org/az/person/mirze-memmedveli-qemerlinski (in Azerbaijani)
11. Qarayev, E. (2024). *Western Azerbaijan in the second half of the 19th century – early 20th century (based on the materials of the Iravan province).* Baku: Fuyuzat, 564 p. (in Azerbaijani)
12. Maharramov, Z. (2010). *Schooling and enlightenment in Iravan (literary-cultural environment in 1800–1920).* Baku: Nurlan, 320 p. (in Azerbaijani)
13. Mardanov, M. (2011). *History of education in Azerbaijan* (Vol. 1). Baku: Education, 295 p. (in Azerbaijani)
14. Mustafa, N. (n.d.). *Elm ve Tehsil.* Accessed March 18, 2025. https://iravan.preslib.az/elm_ve_tehsil.html (in Azerbaijani)
15. Murselova, A. (2020). Iravan in the 17th–19th centuries: history, faqihs, religious education. *II International Ankara Conference of Scientific Research*, Turkiye, Ankara, March 6–8, 2020, 511–513. (in Azerbaijani)
16. *Palitra* Newspaper. (2015, June 10). Information provided by the grandson of Faiq Qemerli. (in Azerbaijani)
17. Rustamov, F. (2022). *Iravan Teachers' Seminary and its graduates.* Baku: Elm ve Tehsil, 240 p. (in Azerbaijani)
18. Rustamov, F. (2024). *Iravan male gymnasium and its Azerbaijani graduates.* Baku: Elm ve Tehsil, 480 p. (in Azerbaijani)
19. Sariyeva, I. (2025). *Famous Iravan Azerbaijani who wrote the “Motherland Language” textbook in the 19th century...* Accessed April 21, 2025. https://www.baki-xeber.com/sosial/166627.html (in Azerbaijani)
20. Zeynalov, A. (2011). *Iravan intelligentsia.* Baku: Mutardzhim, 400 p. (in Russian)
21. Shopen, I. (1852). *Historical monument of the condition of the Armenian region at the time of its annexation to the Russian Empire.* St. Petersburg: Printing House of the Imperial Academy of Sciences. (in Russian)